# Böyük və şərəfli yolun başlanğıcı



***Hər bir xalqın, millətin tarixində uğurlu dönüş, başlanğıc nöqtələri, məqamları olur. Bəzən böyük bir epoxa məhz həmin andan, gündən başlanır. Xoşbəxtlikdən, Azərbaycan xalqının tarixində də müstəsna əhəmiyyəti olan belə bir gün var. Bu, 1969-cu ilin 14 iyul tarixidir. Həmin gün ümummili lider Heydər Əliyev Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlib.***

Bu tarix milli dövlətçilik tariximizə qızıl hərflərlə yazılıb. Zaman göstərdi ki, məhz həmin mübarək tarix Azərbaycanı müstəqilliyə aparan böyük yolun başlanğıcıdır. Heydər Əliyev Azərbaycanı addım-addım, sonsuz bir həvəs və coşqu ilə irəli aparıb. 1969-cu ilin 14 iyull tarixi Azərbaycanın mərhələsi, xalqın özünə qayıdış və tərəqqi tarixidir.

Heydər Əliyev öz müdrik və titanik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. 1969-cu ildən başlayaraq, Azərbaycan iqtisadiyyatı yüksələn xətlə inkişaf etməyə başlayıb. Ötən əsrin 60-cı illərində keçmiş ittifaq miqyasında iqtisadi vəziyyətinə görə ən geridə qalmış ölkəmiz ən qabaqcıl respublikaya çevrilib.

Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilib. Konkret misallar çəkmək istəyirəm. Məsələn, 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilib, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunub. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artıbdır. 1970-1982-ci illərdə Azərbaycanda tikilib istifadəyə verilmiş fabrik, zavod və digər sənaye-istehsal müəssisələrinin sayı əvvəlki 50 ildə tikilən müəssisələrin sayından qat-qat çox idi.

Heydər Əliyev 1982-1987-ci illərdə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışıb. Ulu öndərin həmin illər ərzində parlaq siyasi fəaliyyəti sayəsində Azərbaycan təkcə sovetlər birliyi miqyasında deyil, bütün dünyada bir daha təsdiq olunaraq tanınıb. Heydər Əliyev hər zaman xalqının yanında olan, ondan güc-qüvvət alan tarixi şəxsiyyətlərdəndir. Xalqımız heç vaxt unutmur ki, 1990-cı ilin müdhiş 20 Yanvar faciəsi zamanı Heydər Əliyev Azərbaycana qarşı qərəzli imperiya siyasətinə qətiyyətlə etiraz edibdir.

Dahi rəhbərin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan Azərbaycançılıq ideyasını irəli sürməsi, milli birlik meyillərinin daha da dərinləşdirilməsidir. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli həmrəyliyə nail olmaq amalının Azərbaycanın dövlət siyasətinin tərkib hissəsinə çevrildiyini nümayiş etdirmişdir.

Ulu öndərimizin nəsillərə nümunə olan həyat yolu xalqa təmənnasız xidmətdə keçib. O, nəinki müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin edib, həm də müstəqil, milli dövlətçiliyin əsasını qoyub, yeni idarəçilik məktəbi formalaşdırıb. Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini bu məktəbin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət edib. Bu gün ölkəmiz Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında yeni-yeni nailiyyətlər qazanır.

Beləliklə, 1969-cu ilin 14 iyulu tarixə Azərbaycanın özünə qayıdışının, dirçəliş və inkişaf yolunun başlanğıcı kimi düşüb. Çünki məhz həmin tarixdən etibarən Azərbaycana rəhbərlik edən ulu öndər Heydər Əliyev qüdrətli dövlət xadimi, mahir siyasətçi kimi Azərbaycanı nəinki keçmiş SSRİ-də və dünyada tanıdıb, həm də milli varlığımızı qoruyub saxlayıb.

***Anar AĞAYEV,***
***Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru***

Xalq qəzeti .- 2022.- 14 iyul.- S.7.